**Xalq qəzeti.** - 2023.- 10 yanvar. - № 4. - S. 3.

# Azərbaycanın dövlət müstəqilliyi 103 il əvvəl Parisdə tanınmışdı

**İttifaq Mirzəbəyli**

Əvvəlcə xatırladaq ki, 1920-ci il yanvarın 11-də Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh Konfransı tərəfindən de-fakto tanınması barədə məlumatlara yenidən nəzər salarkən, başqa bir tarixi faktla da rastlaşdıq. Belə ki, Amerika Birləşmiş Ştatlarının tarixindəki ən qədim müqavilə olan, daha doğrusu, ABŞ adlı dövlətin mövcudluğunu elan edən sənəd də məhz Parisdə imzalanmışdır.

Türkiyəli həmkarlarımızın hazırladıqları "Dünya tarixini dəyişdirən 5 müqavilə" adlı analitik materialda qeyd edilir ki, həmin beş müqavilənin üçüncüsü – 1783-cü il sentyabrın 3-də imzalanan Paris Müqaviləsi Böyük Britaniya Krallığı ilə Şimali Amerikadakı 13 müstəmləkə arasında Amerika inqilabına son qoymaq üçün imzalanmışdı. Bu müqavilənin ABŞ üçün xüsusi tarixi əhəmiyyəti var. Çünki, bu sənəd həmin ölkədə mövcud olan ən qədim müqavilədir. Üstəlik, Birləşmiş Ştatlar həmin müqavilə ilə müstəqilliyini əldə etmişdi. Qeyd olunur ki, həmin günlərdə fransızlar və ispanlar Amerika Birləşmiş Ştatlarının yaranmasının qarşısını almaq istəyirdilər. Həm amerikalılar, həm də ingilislər müqavilənin ərsəyə gəlməsi üçün əllərindən gələni etdilər və məhz həmin tarixi sənəd sayəsində sərhədlərini genişləndirərək bugünkü beynəlxalq güc mərkəzinə çevrildilər.

Bu faktı xatırlatmaqla demək istəyirik ki, fransızlar təkcə indi deyil, hətta XVIII əsrin sonlarında da öz maraqlarını təmin etmək məqsədilə kiminsə haqqını tapdalamaqla məşğul olublar. İndi orta məktəb şagirdi də bilir ki, Fransa həmin illərdə xeyli ölkələri öz müstəmləkəsi kimi saxlayırdı. Ona görə də kiminsə müstəqillik qazanmasını qəbul edə bilmirdilər. İndi isə Azərbaycanın BMT tərəfindən tanınmış ərazisində qondarma erməni dövləti yaradılması kimi beynəlxalq hüquqlara zidd olan cəfəng və səfeh addımı həyasızcasına dəstəkləyirlər.

O ki qaldı, yazının əsas mövzusuna, tariximizin həmin dövrünü tədqiq edən mütəxəssislər yazırlar ki, müstəqil Azərbaycanın yaranması xəbəri dünyanın aparıcı paytaxtlarına – Berlin, London, Vyana, Paris, İstanbul, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Kopenhagenə çatdırılmışdı. Tezliklə bəzi dövlətlərlə ikitərəfli sazişlər imzalanmış və həmin dövlətlərdə Azərbaycanın ticarət nümayəndəlikləri açılmışdı. Qonşu ölkələrlə iqtisadi, ticarət və mədəni əlaqələr genişlənmişdi. 1918-ci il noyabrın 16-da dünya parlamentlərinə və xalqlarına, habelə ABŞ Prezidenti Vudro Vilsona gənc respublikanın müstəqilliyini tanımaq xahişi ilə müraciət edilmişdi.

1918-ci ilin sonlarında ölkə parlamenti Paris Sülh Konfransında iştirak edəcək nümayəndə heyətinin tərkibini təsdiqləmiş və nümayəndə heyətinin rəhbəri kimi parlamentin sədri Əlimərdan bəy Topçubaşov, onun müavini isə hökumət üzvü Məhəmməd bəy Hacınski təyin edilmişdi. Ancaq bəzi Avropa siyasətçilərinin yaratdığı çoxsaylı maneələrə görə nümayəndə heyrətimiz Parisə 1919-cu il mayın ortalarında gələ bildi. Təbii ki, bu gecikmə nümayəndələrimizin dəstək almaqdan ötrü lazımi hazırlıq işlərinin görülməsinə əngəl idi. Çünki Paris Sülh Konfransı -1919-cu ilin yanvarında başlanmışdı və üstəlik də, Qafqaz dövlətlərinin müstəqilliyinə münasibətdə Qərb ölkələrinin başçılarının mövqeləri qeyri-müəyyən və bir çox hallarda bir-birinə zidd idi.

Prezident kitabxanasının -elektron resurslarından oxuyuruq ki, 1919-cu il mayın 28-də Azərbaycan nümayəndə heyətini ABŞ -Prezidenti Vudro Vilson qəbul etdi. Lakin görüşün nəticələri o qədər də ürəkaçan olmadı. V.Vilson iclasda qeyd etdi ki, Rusiya məsələsi həll olunmayana qədər Qafqaz respublikalarının müstəqilliyini tanımaq barədə danışmaq mümkün olmayacaq. Rus məsələsi deyərkən o, vətəndaş müharibəsinin nəticəsini və müharibə edən tərəflərdən birinin qələbəsini nəzərdə tuturdu.

Ancaq Əlimərdan bəy Topçubaşovun çoxsaylı siyasi-diplomatik cəhdlərindən sonra Prezident V.Vilson Azərbaycan nümayəndə heyətini əmin etdi ki, Azərbaycan xalqı bundan sonra öz azadlığını və müstəqilliyini qorumaq kimi müqəddəs işində böyük Amerikada lazımi müdafiə və dəstək tapacaqdır. Əlavə edilir ki, bir çox Avropa siyasətçiləri Sovetlərin işğal siyasətinin genişlənməsinin qarşısını almaq üçün Azərbaycan və Gürcüstanın müdafiə qabiliyyətlərinin gücləndirilməsinin zəruriliyi barədə düşünməyə məcbur oldular.

Məhz buna görə hadisələrin belə sürətli inkişafı prosesində Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması təxirəsalınmaz bir vəzifəyə çevrilmişdi. Bu məqsədlə Böyük Britaniyanın təşəbbüsü ilə 10 yanvar -1920-ci ildə Paris Sülh Konfransının Ali Şurasının sessiyası çağırıldı. Sessiyada İngiltərə, Fransa və İtaliyanın hökumət başçıları və xarici işlər nazirləri, ABŞ və Yaponiyadan isə sülh konfransında olan nümayəndə heyətləri və bu ölkələrin Fransadakı səfirləri iştirak edirdilər.

Ab-havadan aydın olurdu ki, həqiqətən, real fəaliyyətdə olan dövlətlərin tanınması üçün artıq hər cür şərait yetişib. Yalnız kiçik bir təkan lazımdır ki, bu da sülh konfransının nümayəndəsi – Xarici İşlər naziri Lord Kerzon tərəfindən edildi. Kerzonun fikrincə, Mudros sazişindən sonra ingilis qoşunlarının Qafqaz sərhədlərinə daxil olması İngiltərə hökuməti üçün daha böyük üstünlüklər yaratmışdır. Bir qədər sonra, yanvarın 11-də Lord Kerzonun təklifi ilə müttəfiqlərin Ali Şurası belə bir qətnamə qəbul etdi: "Müttəfiq və birləşmiş dövlətlər birlikdə Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində tanıyırlar".